## QLOBAL SAHİBKARLIQ HƏFTƏSİ

**Azərbaycan**

**14 Noyabr, 2018**

## AZƏRBAYCANDA QADIN SAHİBKARLIĞININ İNKİŞAFI
**Konfransı**

Bakı, Park Inn, Dan Ulduzu zalı

## PRESS RELİZ

Bakı, Park İnn oteli, **14 noyabr 2018-ci il** - ABŞ İnkişaf Agentliyinin dəstəyi ilə Qlobal Sahibkarlıq Həftəsi çərçivəsində "Azərbaycanda qadın sahibkarlığının inkişafı" mövzusunda konfrans keçirilib.

Konfransda Bakıdan və regionlardan gəlmiş sahibkar qadınlar, qadın biznes assosiasiyaları və nazirliklərin nümayəndələri, diplomatik nümayəndəliklər, Avropa Yenidənqurma və İnkişaf Bankı, ABŞ Beynəlxalq İnkişaf Agentliyi, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, dövlət qurumları və vətəndaş cəmiyyəti təmsilçiləri, jurnalistlər və ekspertlər iştirak etmişlər. Konfransa ümumilikdə 50-dən çox iştirakçı qatılmışdı.

Konfransı giriş nitqi ilə Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun rəhbəri Sabit Bağırov açdı. Konfransın birinci paneli Azərbaycanda qadın sahibkarlığının inkişaf vəziyyətinə həsr olunmuşdu. Milli Məclis üzvü Vahid Əhmədov panelə sədrlik edirdi.

ABŞ səfirliyinin müvəqqəti işlər vəkili Villiam Gill konfrans iştirakçılarını salamladı və qadın sahibkarlığının inkişafının əhəmiyyətindən danışdı.

Birinci paneldə, Kiçik və Orta Biznes Agentliyinin sədr müavini Nadir Adilov, Azərbaycan Qadın Sahibkarlar Assosiasiyasının sədri Səkinə Babayeva, İqtisadiyyat və

Kənd Təsərrüfatı Nazirliyinin nümayəndələri Azərbaycanda qadın sahibkarlığının inkişaf vəziyyətinə dair məruzə etdilər.

Konfransın ikinci paneli Azərbaycanda qadın sahibkarlığının inkişafı yolları mövzusuna həsr edilmişdi. Bu panelə isə Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun prezidenti Sabit Bağırov sədrlik edirdi.

İkinci paneldə, Azərbaycan Mikromaliyyə Assosiasiyasının İcraçı Direktoru və Milli Sahibkarlar Konfederasiyası Rəyasət Heyətinin üzvü Jalə Hacıyeva, Azərbaycanda Amerika Ticarət Palatasının (AmCham) İcraçı direktoru Natəvan Məmmədova, Beynəlxalq Özəl Sahibkarlıq Mərkəzinin region üzrə direktor müavini Natalia Otel Belan, Kiçik və Orta Ölçülü Müəssisələrin İnkişafı və Dəstəklənməsi İdarəsinin şöbə müdiri Murat Şükrü Soykan, Masallı Qadın Resurs mərkəzinin sədri Nərgiz Muxtarova Azərbaycanda qadın sahibkarlığının inkişafı yolları mövzusunda çıxış etdilər.

Daha sonra, Kiçik və Orta Müəassisələrin İnkişafına Yardım Mərkəzinin direktoru İlkin Qarayev, 500 sahibkar qadın arasında keçirilmiş sorğunun nəticələrini konfrans iştirakçılarına təqdim etdi.

Daha sonra konfrans iştirakçıları və məruzəçilər arasında sual-cavab sessiyası oldu.

Konfrans nahar ziyafəti ilə yekunlaşdı.